**UDC:** 737.11
**LBC:** 63.221
**MJ №** 291
10.33864/2617-751X.2025.v8.i3.209-220

# COINS FOUND AS A RESULT OF ARCHEOLOGICAL EXCAVATIONS OF THE XX CENTURY AND TRANSFERRED TO THE NUMISMATIC FUND

**Aygun Mammadova***

**Abstract.** The proclamation of the year 2025 - the year of Peace and Constitution actualised the consideration of numismatic facts - minting of coins reflecting the legal act of the state of different historical periods. This year is marked by reading the memory of a number of scientists-historians - 60 years since the death of corresponding member of AHA, doctor of historical sciences, professor Evgeny Pakhomov, 140 years of the first professional archeologist of Azerbaijan, museologist, ethnographer, geographer Davud Sharifov and 130 years of archeologist and ethnographer of Azerbaijan, honoured worker of science, candidate of historical sciences Ishag Jafarzade. Due to the work of these scientists the history, archeology, numismatics and other auxiliary historical sciences of Azerbaijan have been enriched with scientific conclusions. The article gives a detailed analysis about coins found in different places of Azerbaijan (Agjabedi, Baku, Beylagan, Dashkesan, Gokgel, Gabala, Mingechevir, Shemakha, Yevlakh) as a result of archeological excavations led by local and foreign archeologists, as well as employees of the Institute of History of Azerbaijan Academy of Sciences and Museum of History of Azerbaijan. Although some of these finds have been transferred to the Museum of History of Azerbaijan, they have not been studied in a generalised way. The article presents for the first time photographs of the analogues of such silver and copper coins stored in the Numismatic Fund of the National Museum of History of Azerbaijan

**Keywords:** coin, Azerbaijan, archeology, twentieth century, museum, fund

---

* Doctor of Philosophy in History,
Chief Specialist of the Numismatic Fund of the National Museum of History of Azerbaijan, Lecturer at the Western Caspian University; Baku, Azerbaijan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**To cite this article:** Mammadova, A. [2025]. COINS FOUND AS A RESULT OF ARCHEOLOGICAL EXCAVATIONS OF THE XX CENTURY AND TRANSFERRED TO THE NUMISMATIC FUND. *"Metafizika" journal*, *8*(3), pp.209-220.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.209-220

***Article history:***
*Received: 13.02.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 737.11
**ББК:** 63.221
**MJ №** 291
10.33864/2617-751X.2025.v8.i3.209-220

# МОНЕТЫ, ОБНАРУЖЕННЫЕ В РЕЗУЛЬТАТЕ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК XX ВЕКА И ПЕРЕДАННЫЕ В НУМИЗМАТИЧЕСКИЙ ФОНД

**Айгюн Маммадова***

**Абстракт.** Провозглашение 2025-го года - годом Мира и Конституции актуализировало рассмотрение нумизматических фактов – чеканку монет отображающих правовой акт государства различных исторических периодов. Этот год ознаменован чтением памяти ряда ученых-историков - 60 - летием со дня смерти члена-корреспондента АНА, доктора исторических наук, профессора Евгения Пахомова, 140 - летием первого профессионального археолога Азербайджана, музееведа, этнографа, географа Давуда Шарифова и 130-летием археолога и этнографа Азербайджана, заслуженного деятеля науки, кандидата исторических наук Исхага Джафарзаде. Благодаря труду этих ученых история, археология, нумизматика и др. вспомогательные исторические науки Азербайджана обогатились научными выводами. В статье предоставлен развернутый анализ о монетах, обнаруженных в различных местностях Азербайджана (Агджабеди, Баку, Бейлаган, Дашкесан, Гекгель, Габала, Мингечаур, Шемаха, Евлах) в результате археологических раскопок под руководством местных и зарубежных археологов, а также сотрудников Института Истории АН Азербайджана и Музея Истории Азербайджана. Хотя часть этих находок была передана в Музей Истории Азербайджана они не были обобщенно изучены. В статье впервые предоставлены фотографии аналогов таких серебряных и медных монет, хранящихся в Нумизматическом фонде Национального Музея Истории Азербайджана. Обнаружение местных и иностранных монет в Азербайджане способствует раскрытию номиналов монет разных исторических периодов, городов-монетных дворов, где они чеканились, изучению политико-экономической ситуации и других вопросов. Основные выводы статьи могут быть использованы в учебном процессе средних и высших учебных заведений.

**Ключевые слова:** монета, Азербайджан, археология, двадцатый век, музей, фонд

---

* доктор философии по истории,
Главный специалист фонда Нумизматики Национального Музея Истории Азербайджана, преподаватель Западно-Каспийского Университета; Баку, Азербайджан
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**Цитировать статью:** Маммадова, А. [2025]. МОНЕТЫ, ОБНАРУЖЕННЫЕ В РЕЗУЛЬТАТЕ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК XX ВЕКА И ПЕРЕДАННЫЕ В НУМИЗМАТИЧЕСКИЙ ФОНД. *Журнал «Metafizika», 8(3),* с.209-220.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.209-220

***История статьи:***
*Статья поступила в редакцию: 13.02.2025*
*Отправлена на доработку: 19.03.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 737.11
**KBT:** 63.221
**MJ №** 291
10.33864/2617-751X.2025.v8.i3.209-220

# XX ƏSRDƏ ARXEOLOJİ QAZINTILAR NƏTİCƏSİNDƏ AŞKARLANAN VƏ NUMİZMATİKA FONDUNA TƏHVİL VERİLƏN SİKKƏLƏR

**Aygün Məmmədova***

**Abstrakt.** 2025-ci ilin - Sülh və Konstitusiya ili elan edilməsi müxtəlif tarixi dövrlərdə dövlətin hüquqi aktı olan sikkə zərbini təmsil edən numizmatik faktlara nəzər salmağı aktual etmişdir. Hazırkı il bir sıra tarixçi alimlərin anım günləri ilə əlamətdardır. AMEA-nın müxbir üzvü, t.e.d., prof. Yevgeni Paxomovun vəfatının 60 ili, Azərbaycanın ilk peşəkar arxeoloqu, muzeyşünası, etnoqrafı və coğrafiyaşünası Davud Şərifovun 140 illiyi, Azərbaycan arxeoloqu və etnoqrafı, əməkdar elm xadimi, tarix elmləri namizədi İshaq Cəfərzadənin 130 illiyi tamam olur. Azərbaycan tarixi, arxeologiyası, numizmatikası və d. tarixə yardımçı fənnlər bu alimlərin əməyi sayəsində elmi naticələrlə zənginləşmişdir. Təqdim edilən məqalədə bu alimlərin, həmçinin Azərbaycan EA Tarix İnstitutu, Azərbaycan Tarixi Muzeyinin əməkdaşları, yerli və xarici arxeoloqların rəhbərliyi ilə Azərbaycanın müxtəlif məkanlarında (Ağcabədi, Bakı, Beyləqan, Daşkəsən, Göygöl, Qəbələ, Mingəçevir, Şamaxı, Yevlax) aparılan arxeoloji qazıntılarda aşkarlanan sikkələr haqqında məlumat verilmişdir. Belə tapıntılardan bəziləri Azərbaycan Tarixi Muzeyinə təhvil verilsə də ümumiləşdirilmiş halda araşdırılmayıb. Məqalədə ilk dəfə olaraq məhz belə gümüş və mis sikkələrin Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondundakı analoqlarının fotoları təqdim edilmişdir. Azərbaycanda həm yerli, həm də xarici sikkələrin aşkarlanması müxtəlif tarixi mərhələlərin sikkə nominalları, onların zərb edildiyi şəhər-zərbxanalar, siyasi-iqtisadi vəziyyət və digər məsələləri açıqlamağa imkan verir. Məqalənin əsas müddəaları orta və ali tədris müəssisələrində tətbiq edilə bilər.

**Açar sözlər:** sikkə, Azərbaycan, arxeologiya, iyirminci əsr, muzey, fond

---

* tarix üzrə fəlsəfə doktoru,
Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunun baş mütəxəssisi, Qərbi Kaspi Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191

**Məqaləyə istinad:** Məmmədova, A. [2025] XX ƏSRDƏ ARXEOLOJİ QAZINTILAR NƏTİCƏSİNDƏ AŞKARLANAN VƏ NUMİZMATİKA FONDUNA TƏHVİL VERİLƏN SİKKƏLƏR. *“Metafizika” jurnalı, 8*(3), səh.199-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.209-220

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 13.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 19.03.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir dövrümüzdə informasiya vasitələrinin geniş inkişafı sayəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Azərbaycan numizmatikasını təmsil edən vacib tapıntılar günümüzədək gəlib çatmış olsa da bir sıra məsələlər tam işıqlandırılmayıb.

Məqalədə ilk dəfə olaraq XX əsrdə arxeoloji qazıntılar nəticəsində aşkarlanan gümüş və mis sikkələr haqqında məlumat verilib, belə materialların Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondundakı analoqlarının fotoları təqdim edilib.

## 2.Azərbaycan arxeoloqlarının aşkarladığı sikkələr

1928-ci ildə Azərbaycanın ilk peşəkar arxeoloqu, muzeyşünası, etnoqrafı və coğrafiyaşünası Davud Şərifov (1885-1952) Daşkəsən rayonunun Çovdar kəndindən şimalda, qədim qalanın xarabalığında gümüş və mis sikkələr aşkarlamışdır. Sikkələr Azərbaycan Tarixi Muzeyinə təhvil veriliblər [Пахомов, E.A. 1938. s.51, 61].

1938-ci il iyulun 19-da Daşkəsən rayonunun Xoşbulaq ərazisində Azərbaycan arxeoloqu və etnoqrafı, əməkdar elm xadimi, tarix elmləri namizədi İshaq Cəfərzadənin (1895-1982) rəhbərliyi ilə olan qazıntılar zamanı aşkarlanan sikkənin Sasani şahı IV Hörmüzd (579-590) dövründə zərb edilmiş gümüş drahma olması müəyyən edilmişdir [Пахомов, 1949. s.27].

Elə həmin il həmin rayonun Molla Abdulla bulağı yaxınlığındakı torpaq kurqandan qeyri-düzgün (dairəvi olmayan – A.M.) zərb olunan mis sikkə tapılmışdır. Üzərində atabəy və Abbasi xəlifəsi ən-Nasirin (1180-1225) adlarının həkk edildiyi mis sikkənin XIII əsrin əvvəllərində zərb edildiyi müəyyən edilmişdir. Sikkələr Azərbaycan Tarixi Muzeyinə təhvil veriliblər [Пахомов, 1949. s.42].

1944-cü ildə Qəbələ qalası yaxınlığındakı Çuxur Qəbələ kəndində Azərbaycan arxeoloqu, tarix elmləri namizədi Saleh Mustafa oğlu Qazıyevin (1893-1971) rəhbərlik etdiyi arxeoloji ekspedisiya nəticəsində (qrunt dəfnetmədə) Qotarz dövrünün gümüş drahması aşkarlanmışdır (Пахомов, 1949. s.21). Elə həmin ilin arxeoloji qazıntıları zamanı ayrı-ayrı quyulardan üstü örtülmüş saxsı qırıqları və mis sikkələr tapılmışdır. Numizmatik təyinat nəticəsində hicri 142-ci (759-760) ilin Bərdə, hicri 152 (769; zərbxana oxunmur) və hicri 184-cü (800) ilə aid Aran felsləri müəyyən edilmişdir. Sikkələr Azərbaycan Tarixi Muzeyinin Arxeologiya şöbəsinə təhvil verilmişdir [Пахомов, 1949. s.32]. 1947-ci ildə Xaldan (Yevlax) rayonunun Qalaget şəhərgahındakı alimin rəhbərlik etdiyi arxeoloji qazıntılarda da belə sikkə tapılmışdı [Пахомов, 1954. s.28]. Elə həmin il, həmin yerdə Roma gümüş denariləri (Antoni Pi – 138-161; Plautilla - 212) də aşkar edilmişdi [Пахомов, E.A. 1954. s.31].

1948-ci ilin yay aylarında Saleh Qazıyevin rəhbərlik etdiyi Mingəçevir arxeoloji ekspedisiyası zamanı Kürün sol sahilində kiçik saxsı bardaq tapılmışdır. Parçaya bükülmüş bardağın içərisində bütöv və kəsilmiş sikkələrdən ibarət dəfinə, eləcə də, misdən və ya aşağı əyarlı gümüşdən hazırlanmış zəncir qırığı ilə kiçik sırğa aşkarlanmışdır. Numizmatik təyinat nəticəsində sikkə dəfinəsinin IX əsrin III rübünə aid müəyyən edilmişdir. Dəfinədə Sasani drahmaları (II Xosrov – 579-628), Əməvi, Abbasi, Todqa hökmdarları dövrünün gümüş dirhəmləri müəyyən edilmişdir.

Dəfinədə Əməvi (əs-Samia, hicri 131 = 748-749), Abbasi (əl-Abbasiyya, hicri 152 = 769-770; hicri 166 = 782-783; hicri 170 = 786-787; əl-Muhəmmədiyyə, hicri 160 = 776-777, hicri 180 = 796-797, hicri 186 = 802-803, Mədinət əs-səlam, hicri 160 = 776-777, hicri 165 = 781-782, hicri 179 = 795-796, hicri 180 = 796-797, hicri 187 = 802-803), Mədinət Səmərqənd (hicri 200 = 815-816, hicri 218 = 833-834), Surra min raa (hicri 227 = 841-842), Ərminiyyə (hicri 255 = 868-869; hicri 256 = 869) gümüş dirhəmləri və yarım, qırıq dirhəmlər (əl-Bəsrə, hicri 146 = 763-764; hicri 245 = 859-860; Mədinət əs-Səlam, hicri 158 = 774-775; hicri 213 = 828-829; Mədinət Cey, hicri 162 = 778-779; Mədinət Səmərqənd, hicri 193 = 808-809; hicri 202 = 817-818; Səmərqənd, hicri 202 = 817-818; hicri 204 = 819-820), Todqa hökmdarının yarımdirhəmi (Xələf əl-Muta, hicri 192 = 807-808) müəyyən edilmişdir. Dəfinə Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir [Пахомов, 1949. s.33-34].

Arxeoloq alimin rəhbərlik etdiyi ekspedisiya nəticəsində 1949-cu ildə Yevlax rayonunda, Kürün sağ sahilində küp qəbirlərdə 5 ədəd sikkə aşkarlanmışdır. Məhz bu sikkələrin (Parfiya Ərşakiləri - I Orod – e.ə. 90-80 – **şəkil 2**; III Fraat - e.ə. 70-57 – **şəkil 3;** III Mitridat - e.ə. 57-54) numizmatik təyinatı nəticəsində qəbiristanlığın e.ə. I əsrə aid olması müəyyən edilmişdir [Пахомов,. 1954. s.27].

Elə həmin il həmin ərazidəki arxeoloji qazıntılarda çar Tiqran (2 ədəd gümüş drahma, e.ə. 97-56), Roma respublikası dövrünün gümüş denariləri (Skriboni Libon: e.ə. 54-cü il; Qney Pompey: e.ə. 46-45-ci il; L.Plavtiy Planka: e.ə. 45-ci il) də aşkarlanmışdır [Пахомов, 1954. s.28-29].

1958-ci ildə Şamaxı rayonunun Xınıslı kəndində Saleh Qazıyevin rəhbərlik etdiyi arxeoloji ekspedisiya küp qəbirlərdə digər materiallarla birgə Parfiya hökmdarı Qotarz (40 - 51) dövrünün gümüş drahmasını (d = 19,5 – 21 mm; h = 0,6-1,1 mm; ç = 3,14 q) tapılmışdır [Пахомов, 1966. s.22].

Məlumdur ki, XX əsr Mingəçevir hidroelektrik stansiyasının inşası ilə əlamətdar olmuşdur. Məhz bu tikinti, quruculuq fəaliyyəti dövründə bir sıra arxeoloji tapıntılar, o cümlədən sikkələr dövrün elmi nəşrlərində işıqlandırılıblar.

Azərbaycan arxeoloqu, tarix elmləri doktoru Rəhim Məcid oğlu Vahidovun (1914-1994) rəhbərliyi ilə Mingəçevir şəhəri yaxınlığında, Kür çayının sahilindəki qədim tikinti ərazisində müxtəlif dövrlərə aid sikkələr tapılmışdır.

1948-ci il avqustun 7-də bu ərazidə aparılan arxeoloji qazıntı işləri zamanı 1 m dərinliyində qalın pas qatı ilə örtülmüş sikkələr aşkarlanmışdır. Təyinat nəticəsində Sasani şahı IV Hörmüzdün (579-590) 4-cü və 12-ci hakimiyyət ilinə aid drahmalar müəyyən edilmişdir [Пахомов, 1954. s.33].

1952-ci ildə həmin ərazidə arxeoloq I Şapur (241-272) və Yəzdəgird (399-420; d=28-29 mm; hündürlüyü = 0,5 - 1 mm, ç = 3,02 q dövrünün gümüş drahmalarını aşkarlamışdır [Пахомов, 1957. s.15].

1953-cü ildə Mingəçevirin Qalaget ərazisində, Mingəçevir Hidroelektrik Stansiyasının tikinti işlərində ekskavator, görünür, katakomba qəbrini dağıtmışdı. Bu əraziyə gələn Mingəçevir arxeoloji ekspedisiyasının əməkdaşı Qardaşxan Məmməd oğlu Aslanov qeyd etmişdir ki, qəbir təxminən 1,5 m dərinlikdə yerləşib və oradan ağac parçaları, qırmızı gilli qabların qırıqları, tunc zınqırov, müxtəlif muncuqlar, iki tunc sikkə və s. qalmışdır. Sürtülmüş, dəlinmiş sikkələrin yunan-roma dövrünə olması və asma bəzək kimi istifadə olunduğu qənaəti əldə edilmişdir [Пахомов, 1957. s.14].

Elə həmin ərazidəki katakomba qəbrində, skeletin yaxınlığında arxeoloqlar Qardaşxan Aslanov və Rəhim Vahidov (48/54 saylı qazıntı 3/6 saylı kvadratda təxminən 6 m dərinlikdə) Parfiya hökmdarı Qotarz dövrünün gümüş drahması aşkarlamışdılar [Пахомов, 1957. s.14].

**3.Xarici arxeoloqların rəhbərliyi ilə tapılmış numizmatik materiallar**

XX əsrdə Azərbaycan Tarixi Muzeyinə həm də xarici arxeoloqların aşkarladıqları sikkələr təhvil verilmişdir.

Rusiyalı akademik, SSRİ EA-nın həqiqi üzvü İvan İvanoviç Meşşaninov (1883-1967) Qafqazda və Qaradənizyanı ölkələrdə arxeoloji qazıntılara rəhbərlik etmiş, Naxçıvan və Dağlıq Qarabağda aşkarlanan arxeoloji materialları tədqiq etmişdir.

Onun Beyləqanın Örənqala yaşayış yerində aşkarladığı mis sikkələrin (50-dən artıq) numizmatik təyinatı nəticəsində Azərbaycan atabəyi Əbubəkr (1191-1210 ) və Abbasi xəlifəsi ən-Nasirin (1180-1225) adından zərb edildiyi məlum olmuşdur [Пахомов, 1938. s.29].

1926-cı il may ayının 8-də Bakı şəhərində, Şirvanşahlar Sarayı ərazisindəki “Dərviş türbəsi”ndə bu alimin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılarda üzərində dörd balıq və ərəbcə yazı olan mis sikkə tapılmışdı. Sikkənin XV-XVI əsrlərin anonim mis Bakı felsi olduğu müəyyən edilmişdi [Пахомов, 1938. s.49].

Milliyyətcə alman olan, Xanlar rayonunda dünyaya gəlmiş arxeoloq və etnoqraf Yakov İohanesoviç Qummel (1893-1946) Gəncəçay ərazisində

arxeoloji qazıntılara rəhbərlik etmişdir. Alimin rəhbərlik etdiyi arxeoloji qazıntılar nəticəsində aşkarlanan materiallar hazırda Milli Azərbaycan Tarixi Muzeyində qorunur. Xanlar tarix-diyarşünaslıq Muzeyi bu alimin təşəbbüsü ilə yaradılmışdır.

1940-cı il mayın 4-də Xanlar (Göygöl) şəhərindən qərbdə, 1 saylı yaşayış məntəqəsində aparılan arxeoloji qazıntılar zamanı torpağın üzərində Y.İ.Qummel mis fels tapmışdır. Sikkənin hicri 1116 = 1704-1705-ci ildə Gəncədə zərb edildiyi, üzərində sağa yönəlmiş keçi və bitki təsvirlərinin həkk olunduğu məlum olmuşdur (d – 23 -24,2; h – 2,54 - 3,3 mm; çəkisi 10, 99 q; 2, s.82; **şəkil 6**).

Növbəti ildə elə həmin rayonun Komsomolski küçəsində Y.İ.Qummelin rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar zamanı gümüş sikkə aşkarlanmışdır. Sikkənin hicri 913-cü (1507-1508) ildə Təbriz şəhərində zərb edildiyi müəyyən edilmişdir (d = 30 – 31 mm, ç = 18,67 q; 2, s. 61, **şəkil 5**).

Yuxarıdakı sikkələrin numizmatik qeydiyyatını və təyinatını, t.e.d., professor Yevgeni Paxomov (1880-1965) etmişdir.

Görkəmli Rusiya arxeoloqu, Qafqazın tunc dövrü üzrə mütəxəssis, etnokultroloji məsələlərə həsr edilmiş məqalələrin müəllifi olan Aleksandr Aleksandroviç İessenin (1896-1964) fəaliyyəti Azərbaycanın qədim və orta əsrlər tarixi və mədəniyyətinin tədqiqi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan SSR EA Tarix İnstitutunun nəzdində Örənqala arxeoloji ekspedisiyasının təşkilatçısı və rəhbəri olaraq bir sıra mühüm nəticələr əldə etmişdir. Onun rəhbərliyi ilə Azərbaycanın bir sıra rayonlarında, xüsusən də Mil-Qarabağ düzənliyində stasionar və kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparılaraq yeni elmi açıqlamalar edilmişdir [7].

Beyləqan rayonunun Örənqala yaşayış yerində illərlə aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan arxeoloji material sayəsində orta əsrlərə aid Beyləqan şəhəri və VIII – XII əsrlərdə Azərbaycan tarixi və mədəniyyətini ilə əlaqədar bir sıra problemlər həllini tapmışdır. Çoxsaylı elmi əsərlərdə işıqlandırılan belə ətraflı elmi nailiyyətlər sayəsində Mil-Qarabağ düzəngahının qədim dövrdən orta əsrlərə qədər olan ümumi mənzərəsi ilə yanaşı həm də Cənubi Qafqaz tarixinin müxtəlif məsələləri tədqiq edilmişdir. Belə tapıntılar sırasındakı sikkələri t.e.d., professor Yevgeni Paxomov qeydiyyata almış, təyinatını etmişdir.

Belə qeydlərə əsasən: “1955-ci ilin yazında Jdanov (indiki Ağcabədi) rayonunun Təzəkənd kəndindəki kolxozda kənd sakinləri tərəfindən gümüş sikkələrdən ibarət kiçik həcmli sikkə dəfinəsi aşkarlanmışdı. Belə sikkələrdən dördü A.İessenin rəhbərliyi altında Örənqala şəhər yerində işləyən arxeoloji ekspedisiya tərəfindən əldə edilmişdi. Numizmatik təyinat nəticəsində sikkələrin Roma imperatoru Avqust (e.ə. 27 – e. 14) dövründə zərb edilən

gümüş denarilər (üzərinə oğulları Qay və Lusinin təsvirləri həkk edilib) olması müəyyənləşdirilmişdir" [Пахомов, 1957. s.13; **şəkil 1**].

1957-ci il iyun ayının 7-də Beyləqan rayonunun Örənqala yaşayış yerində A.İessenın rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar zamanı 4,5 m dərinlikdə paslanmış mis sikkə aşkarlanmışdır. Tapıntı numizmatik təyinat üçün professor Y.Paxomova təqdim edilmişdir. Nəticədə Bizans imperatoru Anastasi (491-518) dövründə zərb edildiyi müəyyən edilmişdir (diametri- 33 – 34 mm; hündürlüyü – 1,5 – 2 mm, çəkisi - 14,5 q) [Пахомов, 1966. s.30].

XX əsrin 40-cı illərində Sovet arxeoloqu Vadim Nikolayeviç Leviatovun (1905-1963) rəhbərliyi ilə Bakı şəhərindəki Şirvanşahlar Saray-Kompleksində arxeoloji qazıntı işləri nəticəsində VII-XV əsrlərə aid maddi-mədəniyyət tapıntıları, o cümlədən sikkələr əldə edilmişdir.

Şirvanşahlar Sarayının həyətində, 3 №-li sahədə 2,6 m dərinliyində Əhər məliki, Bişkinin oğlu Mahmudun adı (**şəkil 4**) olan mis sikkələr tapılmışdır. 16 q çəkiyə malik, itiuclu sikkələrin atabəy Özbəyin (hicri 607 - 622 = 1210-1225) və xəlifə ən-Nasirin (1180-1225) adından zərb olunduğu müəyyən edilmişdir [Пахомов, 1949. s.35].

V.N.Leviatovun rəhbərliyi ilə həm Şirvanşahlar Sarayında, həm də Bakı şəhərinin müxtəlif küçələrində aparılan arxeoloji qazıntılarda Şirvanşah-Kəsranilər (mis, Gerşasb bin Fərruxzad, 3,3 q; III Fəriburz), Elxanilər (mis, Tiflis, 0,57 q), Teymurilər, Səfəvilər (mis, hicri 978 = 1570-1571), XV-XVI əsrlərin mis (Bakı; Şamaxı) sikkələri, Şamaxı xanlığının (mis, hicri 1208 = 1793-1794, 3,5 q, tovuz quşu təsviri ilə; mis, hicri 1216 = 1801-1802, 3,32 q) tapılmışdır [Пахомов, 1949. s.35, 36, 38, 39, 40, 42, 43].

Arxeoloq, tarix elmləri namizədi, dosent Qavriil İosifoviç İone (1912-1979) Azərbaycanın qədim və orta əsrlər keramikası üzrə bir sıra elmi məqalələrin müəllifi olmuş, 1938-1952-ci illərdə Azərbaycan Tarixi Muzeyində çalışmışdır.

Ötən əsrin 40-cı illərində Mingəçevirdə, Kürün sol sahilində alimin rəhbərliyi və Azərbaycan Tarixi Muzeyi əməkdaşlarının iştirak etdiyi arxeoloji qazıntılar zamanı küp qəbirdə Parfiya Ərşakiləri - IV Fraat (e.ə. 38-2) dövrünün gümüş, 7 №-li qazıntı sahəsində, 0,4 m dərinlikdə Sasani şahənşahı II Yezdəgird (439-457) dövrünün gümüş drahmaları tapılmışdır [Пахомов, 1949. s.20, 31, 32).

1951-ci Bakı şəhərindəki Şirvanşahlar Sarayının həyətində arxeoloji tədqiqatlar nəticəsində alim, şirvanşah Fəriburz (XII əsrin sonu XIII əsrin əvvəli, d =11 - 11,5 mm; hündürlüyü =2 - 2,5 mm; çəkisi - 1,71 q) dövrünün mis sikkəsi və Bakı zərbxanasında istehsal edilmiş mis sikkə tapmışdır (XV - XVI əsrlər, diametri - 15,5 – 19 mm; hündürlüyü = 1 mm; çəkisi= 2,27 q) [Пахомов, 1959. s.18, 22].

## 4.Nəticə

XX əsrin I yarısındakı arxeoloji qazıntılar nəticəsində Azərbaycan Tarixi Muzeyinə təhvil verilən sikkələr fond materiallarının sayının artmasına, numizmatik əsərlərin yaranmasına səbəb olublar. Məhz bu illərdə Bakı Dövlət Universitetində də Numizmatika Kabineti yaradılaraq “Numizmatika” fənninin tədrisinin təməli qoyulmuşdur.

Azərbaycanda aşkarlanan belə sikkələr sayəsində ilkin topoqrafik məlumatlar yaradılmış və daha sonrakı illərdə bu məlumatlar daha da zənginləşdirilmişdir.

Məqalədə olan məlumatlardan da görünür ki, ötən əsrdə Azərbaycanda həm yerli, həm də xarici sikkələr tapılıblar. Müxtəlif tarixi dövrlərə aid belə sikkələrin hər biri ayrıca tədqiqat mövzusudur.

Hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondu sikkələrin sayına əsasən respublikamızda vahid numizmatik mərkəz adını daşıyan yeganə xəzinədir.

2025-ci ilin Azəbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin sərəncamı ilə “Sülh və Konstitusiya ili” elan etməsi dövlətçiliyi əsas təmsilçisi olan sikkə zərbi ilə əlaqədar məsələləri aktual etmişdir.

Respublikamızda aşkarlanan sikkə tapıntılarının qeydiyyatı hazırda da davam etdirilir. Numizmatika Fondu əməkdaşlarının fəaliyyəti nəticəsində sikkələrin numizmatik təyinatı, elektron pasportlaşması prosesi, elmi tədqiqi davam etdirilir. Belə sikkələrin qorunması və əhəmiyyəti muzeyə müraciət edən gənc nəsil nümayəndələrinə, yerli vətəndaşlara, xarici turistlərə izah edilir. Məqalə müəllifi Bakı şəhərindəki Qərbi Kaspi Universitetində pedaqoji fəaliyyəti prosesində sikkə tapıntılarının təbliği və tədrisini həyata keçirir.



Şəkil 1. NF 4492. Gümüş denari. Roma. Avqust (e.ə. 27 – e. 14), 3,7 q



Şəkil 2.NF 36345. Gümüş drahma. Parfiya Ərşakiləri. I Orod (e.ə. 90-80), 3,7q



Şəkil 3.NF 36298. Gümüş drahma.
Parfiya Ərşakiləri. III Fraat (e.ə. 70 – 57), 3,8 q



Şəkil 4. NF 32693. Mis fels. Azərbaycan atabəylərinin vassalları. Bişkin ibn Muhəmməd (1175-1210).7,42 q



Şəkil 5. NF 10697. Gümüş ikili şahi.
Səfəvilər. I İsmayıl (hicri 907-930 = 1501-1523),
Təbriz, hicri 913 = 1507-1508, 18,6 q.



Şəkil 6. NF 4325. Mis fels. Gəncə xanlığı. XVIII əsr, 8,8 q

## ƏDƏBİYYAT

1. Пахомов, Е.А. (1938). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку: Изд. АзФАН СССР, 34 с.
2. Пахомов, Е.А. (1949). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку: Изд. АзФАН СССР, 70 с.

**3.** Пахомов, Е.А. (1954). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VI, Баку: Изд. АзФАН СССР,64 с.
**4.** Пахомов, Е.А. (1957). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VII, Баку: Изд. АзФАН СССР,67 с.
**5.** Пахомов, Е.А. (1959). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку: Изд. АзФАН СССР,46 с.
**6.** Пахомов, Е.А. (1966). Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IX, Баку: Изд. АзФАН СССР, 109 с.
**7.** Этнополитическая и культурная история Карабаха// https://karabakh.center/storage/libraries/DVHPlVkM5teKcBeESs6c4Bv6TDP7aE5DQKhx4y3h.pdf.

**REFERENCES**

**1.** Pakhomov, E. A. (1938). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 34 p. (in Russian)
**2.** Pakhomov, E. A. (1949). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 70 p. (in Russian)
**3.** Pakhomov, E. A. (1954). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 64 p. (in Russian)
**4.** Pakhomov, E. A. (1957). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 67 p. (in Russian)
**5.** Pakhomov, E. A. (1959). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 46 p. (in Russian)
**6.** Pakhomov, E. A. (1966). Coin Hoards of Azerbaijan and Other Republics, Regions, and Territories of the Caucasus. Baku, 109 p. (in Russian)
**7.** Ethnopolitical and cultural history of Karabakh // https://karabakh.center/storage/libraries/DVHPlVkM5teKcBeESs6c4Bv6TDP7aE5DQKhx4y3h.pdf.